<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu, kredit sayı</td><td>EDU306, Təhsilin tarixi və fəlsəfi əsasları,<br>6 AKTS</td></tr>
<tr><td>Departament</td><td>Təhsil</td></tr>
<tr><td>Proqram (bakalavr, magistr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2025/26-cı tədris ilinin yaz semestri</td></tr>
<tr><td>Fənni tədris edən müəllim (lər)</td><td>Ruslan Xəlilov</td></tr>
<tr><td>E-mail:</td><td>ruslan.khalilov@khazar.org</td></tr>
<tr><td>Telefon:</td><td>-</td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td>Məhsəti Gəncəvi küç. (Neftçilər Kampusu)</td></tr>
<tr><td>Məsləhət saatları</td><td>Razılaşdırılaraq təyin etmə ilə</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="2">EDU 101 Təhsilə giriş</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">Azərbaycan</td></tr>
<tr><td>Fənnin növü (məcburi, seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Ədəbiyyat</td><td colspan="2"><u>Əsas:</u><br>1) Gültekin Mehmet. Təhsil elminə giriş. Bakı: Xəzər Universiteti nəşriyyatı, 2018.<br>2) Mühazirə qeydləri.<br>3) Rüfət Hüseynzadə. Pedaqoqika. Bakı, 2021.<br>4) Nel Noddings. Philosophy of education(lV edition), 2018.<br>5) Rüstəmov Fərrux. Pedaqoqika tarixi. Bakı: Nurlan, 2006.<br>6) Abbasov Akif, Məmmədova Lalə, İradə Əmirəliyeva. Pedaqogika nəzəriyyəsi və tarixi. Bakı, 2022.<br>7) Sabri Büyükdüvenci. Eğitim felsefesine giriş, 2019.<br>8) John Dewey. Democracy and Education, 2024.<br><br><u>Əlavə:</u><br>1) Thomas Stehlick. Educational philosophy for 21st century teachers, 2024.<br>2) Smeyers, Paul, ed. International handbook of philosophy of education. Cham: Springer, 2018.</td></tr>
<tr><td>Kursun təsviri</td><td colspan="2">Semestr müddətində tələbələrə təhsilin predmeti, tarixi və təhsil anlayışının fəlsəfi mahiyyəti tədris ediləcək. Həmçinin, tələbələr müxtəlif tarixi dövrlərdə mövcud olmuş təhsil sistemləri, nəzəriyyələri və bir sıra məşhur filosofların, elm adamlarının təhsil haqqında baxışlarıyla tanış olacaqlar. Tədris daha çox yaradıcılığa və innovativliyə əsaslanacaq, tələbələrə təhsil haqqında yeni nəzəri və praktiki məlumatlar veriləcəkdir. Bununla yanaşı tədris zamanı</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | tələbələrlə təhsil haqqında qarşılıqlı müzakirələr və mövzulara uyğun təhlillər aparılacaqdır. | | |
| **Kursun məqsədləri** | Fənnin tədrisindəki məqsədlər aşağıdakılardır:<br>1) Tələbələrə təhsilin tarixi və fəlsəfəsi ilə bağlı ümumi biliklər vermək, təhsil haqqında müxtəlif nəzəriyyələr ilə tanış etmək<br>2) Təhsilə tarixi və fəlsəfi baxımından düzgün yanaşmaq vərdişini tələbələrdə formalaşdırmaq<br>3) Müasir təhsil nəzəriyyələri və metodları haqqında tələbələrdə bilik formalaşdırmaq<br>4) Müasir təhsil nəzəriyyələri və metodlarının cəmiyyətə inteqrasiyası məsələsində tələbələrdə nəzəri və praktiki fikir formalaşdırmaq<br>5) Tələbələrdə təhsil haqqında analitik düşüncə tərzini formalaşdırmaq | | |
| **Tədrisin nəticələri** | **<u>Gözlənilən nəticələr:</u>**<br>Təhsilin tarixi və fəlsəfi mahiyyətini əsas anlayışlar vasitəsilə izah edir.<br>Müxtəlif tarixi dövrlərdə (antik, orta əsrlər, intibah, yeni və müasir dövr) təhsilin əsas xüsusiyyətlərini təsvir edir və müqayisə edir.<br>Müasir təhsil məsələlərinə tarixi-fəlsəfi baxışla qısa analitik mövqe bildirir (müzakirə və ya yazılı tapşırıqda).<br>Mövzu üzrə təqdimat hazırlayır və istinad qaydalarına uyğun şəkildə arqumentləşdirir. | | |
| **Tədris metodları** | **Qrup müzakirəsi** | + | |
| | **Praktik tapşırıqlar** | + | |
| | **Praktik məsələnin həlli** | + | |
| | **Digər** | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Davamiyyət** | | **5** |
| | **Fəallıq** | | **10** |
| | **Təqdimat** | | **5** |
| | **Quizlər** | | **15** |
| | **Aralıq imtahanı** | | **30** |
| | **Final imtahanı** | | **35** |
| | **Yekun** | | **100** |
| **Tədris siyasəti və intizam qaydaları** | **Fəallıq:** Dərsin interaktiv qaydada keçirilməsi nəzərdə tutulur. Aktivliyin qiymətləndirilməsi üçün tələbələrin dərs müddətində həyata keçiriləcək diskussiyalarda, sual-cavablarda fəal iştirak etməsi, prezentasiya təqdimatı, keçirilən dərslər üzrə geniş araşdırmalar aparıb müzakirələrdə təqdim etməsi tələb olunur.<br>**Quiz:** Quizlər semesterdə iki dəfə,tələbələrə yazılı olaraq üç açıq sual verməklə keçirələcək. Sualların məzmunu tələbələrə əvvəlcədən bildiriləcək. | | |

| | |
|---|---|
| | **Təqdimat:** Təqdimat mövzuları tələbələrin istəyindən asılı olaraq müəllim və ya tələbə tərəfindən seçilə bilər. Təqdimat mövzusu fənnin profilinə uyğun olmalı və auditoriya qarşısında təqdim olunmalıdır. Təqdimatda seçilən mövzu əhatəli şəkildə və hazırlanmış slaydlarda (10-15 slayd) izah olunmalı, təqdimatdan irəli gələn suallara aydın şəkildə cavab verilməlidir. Süni intellekt və digər vasitəçi proqramlardan geniş istifadə edilməsi, plagiatlıq yolverilməzdir.<br><br>**Plagiat:** Plagiat digər müəlliflərin yazılarına istinad etmədən onlardan olduğu kimi istifadə edilməsidir. Plagiat edən tələbələr sıfır (0) alacaq və cərimə olunacaqlar. Tələbələr təqdimat mətnində başqa müəlliflərin yazılarından istifadə edərkən mütləq istinadlar göstərməlidirlər.<br><br>**Davamiyyət:** Tələbələr Xəzər Universitetinin davamiyyət qaydalarına riayət etməlidirlər. Onlar xəstə və ya rəsmi icazə aldığı (dekanlıq tərəfindən təsdiq olunmuş formada) hallardan başqa bütün dərslərdə iştirak etməlidirlər. Hər üzrsüz səbəbdən buraxılan dərs saatı davamiyyətə ayrılan ballardan çıxarılacaq (hər 2 saat – 0,5 bal).<br>Üzürsüz buraxılan dərs saatlarının sayı 25%-dan cox olduqda tələbə yalnız fakültə dekanının razılığı ilə imtahana buraxıla bilər.<br>Dərsə gecikmək və dərsin gedişatına mane olmaq (söhbət etmək və qeyri-etik davranışlara yol vermək) qadağandır. Müəllimin dərsin gedişatına mane olan tələbələri dərsdən kənarlaşdırmaq və bununla bağlı müvafiq qeyd aparmaq səlahiyyəti vardır. |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix (planlaşdırılmış) | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | | Giriş: Təhsil anlayışı nədir? Təhsilə tarixi və fəlsəfi yanaşma. Təhsilin ilkin formaları | 1) Mehmet Güntekin *Təhsil elminə giriş* səh. 78-90; 15-22;<br>2) Sadovnik AR et. al *Exploring education* pp. 14-16.<br>Rüstəmov F. *Pedaqogika tarixi* səh.11-19. |
| 2. | | İlkin sivilizasiyalarda elm və fəlsəfənin yaranması və onun xarakterik xüsusiyyətləri. İlkin cəmiyyətlərdə biliyin öyrənmə üsulları | 1) Rüstəmov F. *Pedaqogika tarixi* səh. 21-52;<br>2) Mühazirə qeydləri |
| 3. | | Qədim yunan-roma dövründə elm və fəlsəfə. Antik dövrün əsas nümayəndələri və onların elmi-fəlsəfi ideyaları | 1) Rüstəmov, F. *Pedaqogika tarixi* səh. 61-100<br>2) Mühazirə qeydləri |

| | | | |
|---|---|---|---|
| 4. | | Orta əsrlər dövründə təhsilin əsas xüsusiyyətləri | Rüstəmov, F. *Pedaqogika tarixi* səh. 117-130.<br>2) Ornstein AC et.al *Foundations of education* pp. 78-84. |
| 5. | | Xristianlıq və İslam dinində elm və təhsil: oxşar və fərqli cəhətlərin təhlili | Rüstəmov, F. *Pedaqogika tarixi* səh. 105-114;133-180. |
| 6. | | İntibah dövründə Avropada elm və təhsilin əsas mahiyyəti | Rüstəmov, F. *Pedaqogika tarixi* səh. 279-295.<br>2) Ornstein AC et.al *Foundations of education* pp. 84-90. |
| 7. | | Yeni dövrdə Avropada təhsilin əsas xüsusiyyətləri və onların nümayəndələri | 1) Ornstein AC et.al *Foundations of education* pp. 92-96.<br>Rüstəmov F. *Pedaqogika tarixi* səh 327-348<br>3) Mühazirə qeydləri |
| 8. | | Con Lokkun elmi-fəlsəfi ideyaları. “Tabula rasa (ağ lövhə)” nəzəriyyəsi və onun mahiyyəti | 1) Rüstəmov F. *Pedaqogika tarixi* səh.352-358.<br>2) Mühazirə qeydləri |
| **Aralıq imtahanı** | | | |
| 9. | | Jan Jak Russonun təhsil tarixində rolu. “Emil və ya tərbiyə” əsərinin elmi-pedaqoji əhəmiyyətinin təhlili | 1) Rüstəmov F. *Pedaqogika tarixi* səh. 358-372<br>2) Mühazirə qeydləri |
| 10. | | İmmanuel Kantın pedaqoqika haqqında elmi-fəlsəfi ideyaları | 1) Rüstəmov F. *Pedaqogika tarixi* səh. 402-410.<br>2) Mühazirə qeydləri |
| 11. | | C. S. Mill və onun utilitarianizmi. Utilitar təhsil və onun əsas mahiyyəti | Mühazirə qeydləri |
| 12. | | Con Dyui və onun təhsil fəlsəfəsi | 1) Rüstəmov F. *Pedaqogika tarixi* səh. 564-575.<br>2) Mühazirə qeydləri |
| 13. | | Müasir dövrdə qlobal dünyada təhsil:əsas baxışlar, nəzəriyyələr | 1) Rüstəmov F. *Pedaqogika tarixi* səh.563-582.<br>2)Mühazirə qeydləri |
| 14. | | Ümumi təkrar və diskussiya | |
| **Final imtahanı** | | | |